**https://doi.org/10.58225/tim.2025-4-240-246**

**C.M.Abdullayev**
***doktorant, Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutu***
***javidnarimansoy@gmail.com***

*Məqalə redaksiyaya daxil olub 03.11.2025*
*The article was received by editorial board on 03.11.2025*
*Статья принята к печати 03.11.2025*

# XİDMƏT İQTİSADİYYATININ YENİDƏN FORMALAŞMASI: QARABAĞ MODELİ

**Xülasə**

*Hazırkı qlobal iqtisadiyyatda xidmət sektorunun rolu sürətlə artır. Azərbaycan iqtisadiyyatı uzun illər neft-qaz gəlirlərindən asılı olmuş, lakin post-neft dövründə davamlı inkişaf üçün iqtisadi diversifikasiyaya ehtiyac yaranmışdır. Xidmət iqtisadiyyatının yenidən formalaşdırılması bu zərurətdən irəli gəlir. 2020-ci illərdə ölkədə xidmət sektorunun ÜDM-də payı tədricən yüksəlsə də, bu göstərici dünya orta səviyyəsindən hələ geri qalır. Qarabağ bölgəsinin işğaldan azad edilməsi isə Azərbaycana yeni iqtisadi modeli sınaqdan keçirmək imkanı vermişdir. Məqalədə ilk dəfə "Qarabağ modeli" kontekstində post-münaqişə dövründə xidmət sektorunun inkişaf xüsusiyyətləri araşdırılır, azad edilmiş ərazilərdə müasir infrastruktur quruculuğu və xidmət yönümlü fəaliyyətlərin (turizm, logistika, İKT və s.) perspektivləri təhlil edilir. Tədqiqatda rəsmi statistik məlumatlar və mövcud elmi ədəbiyyat əsasında təhlil aparılmışdır. Hökumətin apardığı genişmiqyaslı bərpa işlərinin və tətbiq etdiyi vergi güzəştləri, investisiya təşviqi kimi xüsusi mexanizmlərin xidmət iqtisadiyyatının formalaşmasına təsiri qiymətləndirilir. Nəticələr göstərir ki, Qarabağ regionunda yaradılan yeni iqtisadi mühit Azərbaycanın ümumi iqtisadi diversifikasiyasına və dayanıqlı inkişafına əhəmiyyətli töhfə verə bilər.*

***Açar sözlər:*** *xidmət iqtisadiyyatı, Qarabağ, iqtisadi model, diversifikasiya, bərpa.*

## GİRİŞ

Xidmət sektorunun inkişafı müasir dövrdə ölkələrin iqtisadi yüksəlişində aparıcı istiqamətlərdən birinə çevrilmişdir. Hələ ötən əsrin 70-ci illərində post-industrial cəmiyyət nəzəriyyəsi xidmət sahələrinin artan əhəmiyyətini ön plana çəkmişdir (Bell, 1973). İnnovasiya yönümlü iqtisadiyyatlarda müşahidə edilir ki, sənaye və kənd təsərrüfatından xidmət sferasına doğru struktur dəyişikliyi təkcə inkişaf etmiş ölkələrdə deyil, eyni zamanda inkişaf etməkdə olan ölkələrdə də baş verir (Gryczka, 2016). Başqa sözlə, "xidmətləşmə" prosesi qlobal xarakter almışdır. Bu, xidmət sektorunun ÜDM-dəki payının artması və məşğulluqda dominant mövqeyə gəlməsi ilə səciyyələnir.

Azərbaycan da istisna təşkil etmir: son onilliklərdə iqtisadiyyatın strukturunda xidmət sahələrinin çəkisi tədricən artsa da, ölkənin iqtisadi modelində hələ də neft-qaz sektoru üstünlük təşkil edir. Xüsusilə 2000-ci illərdə neft gəlirlərinin sürətli artımı xidmət sektorunun ümumi iqtisadiyyatda payını nisbi olaraq məhdudlaşdırmışdı. Məsələn, 2014-cü ildə qlobal neft qiymətlərinin azalması fonunda Azərbaycan xidmət sektorunun ÜDM-də payı təxminən 42%-ə yüksəlmiş, lakin sonrakı illərdə yenidən eniş və artım dalğaları müşahidə edilmişdir (World Bank, 2025). Aşağıdakı cədvəldə son on il ərzində ölkə iqtisadiyyatında xidmət sahəsinin payındakı dəyişikliklər göstərilir (Ümumi Daxili Məhsulda faiz nisbəti olaraq).

**Cədvəl 1**

**Xidmət sektorunun ÜDM-də payı (%).**

| **İl** | **Xidmət sektorunun ÜDM-də payı (%)** |
|---|---|
| 2015 | 43.9 |
| 2016 | 42.3 |

| | |
|---|---|
| 2017 | 38.0 |
| 2018 | 35.5 |
| 2019 | 36.9 |
| 2020 | 42.5 |
| 2021 | 33.0 |
| 2022 | 31.9 |
| 2023 | 39.8 |
| 2024 | 42.3 |

***Mənbə:*** *Dünya Bankının məlumatları əsasında (World Bank, 2025).*

Yuxarıdakı rəqəmlər göstərir ki, 2010-cu illərin sonu və 2020-ci illərin əvvəllərində Azərbaycan iqtisadiyyatında xidmət sahələrinin payı dalğavari dəyişikliyə məruz qalmışdır. 2015–2019-cu illərdə qeyri-neft sektorunun prioritetləşdirilməsinə baxmayaraq, neft hasilatındakı dəyişikliklər xidmət sektorunun nisbi payına da təsir etmişdir. 2020-ci ildə COVID-19 pandemiyası səbəbindən neft tələbatının azalması nəticəsində xidmətlərin ÜDM-də payı kəskin yüksəldi. Lakin 2021–2022-ci illərdə neft qiymətlərinin bərpası ilə bu göstərici müvəqqəti olaraq aşağı düşmüşdür. Bununla belə, 2023–2024-cü illərdə qeyri-neft sektoru üzrə artım (xüsusilə turizm və ticarətdə canlanma) xidmətlərin ümumi iqtisadiyyatda payının yenidən artmasına səbəb olmuşdur. Bu dinamika göstərir ki, Azərbaycan iqtisadiyyatı üçün xidmət sektorunun dayanıqlı inkişafı hələ tam təmin olunmayıb və ciddi struktur islahatlarına ehtiyac vardır.

Azərbaycan hökuməti post-neft dövründə iqtisadiyyatın şaxələndirilməsi məqsədilə bir sıra strateji təşəbbüslər həyata keçirir. "Azərbaycan 2030" sosial-iqtisadi inkişaf strategiyasında qeyri-neft sektorlarının, o cümlədən kənd təsərrüfatı, turizm, nəqliyyat və informasiya-kommunikasiya texnologiyalarının inkişafı əsas prioritet kimi vurğulanır (International Trade Administration, 2023). Xüsusən turizm və logistika sahələrinin inkişafı üçün əlverişli şərait yaradılması, rəqəmsal iqtisadiyyatın təşviqi, vətəndaşlar üçün xidmətlərin keyfiyyətinin yüksəldilməsi qarşıya məqsəd qoyulub. Bununla yanaşı, beynəlxalq təcrübə göstərir ki, xidmət sferasının genişlənməsi təkcə infrastruktur qurmaqla bitmir – eyni zamanda biznes mühitinin yaxşılaşdırılması, insan kapitalına yatırımlar və innovativ idarəetmə praktikaları tələb olunur (Gryczka, 2016).

Hazırda Azərbaycan iqtisadiyyatında xidmət sektorunun payı təxminən 40-42% civarındadır (World Bank, 2025). Müqayisə üçün, dünya üzrə orta göstərici 55-60% arasındadır. Bu o deməkdir ki, ölkə xidmət iqtisadiyyatının potensialından tam istifadə etmir. Təxminən yarım əsr əvvəl inkişaf etmiş ölkələrin keçdiyi post-industrial transformasiya mərhələsini Azərbaycan sürətləndirilmiş formada həyata keçirməlidir. Ölkədə maliyyə xidmətləri, turizm, nəqliyyat-logistika, telekommunikasiya və ictimai xidmətlər kimi sahələrin modernləşdirilməsi və ÜDM-də payının artırılması uzunmüddətli iqtisadi dayanıqlığın əsas şərtlərindəndir.

Azərbaycanın xidmət iqtisadiyyatının yenidən formalaşdırılması istiqamətində addımlar atdığı bir vaxtda 2020-ci ildə əldə edilən tarixi Qələbə və Qarabağ bölgəsinin işğaldan azad olunması bu prosesə yeni bir perspektiv gətirdi. İşğaldan azad edilmiş ərazilər əvvəlki onilliklərdə iqtisadi dövriyyədən kənarda qalmış, infrastrukturu dağıdılmış durumdaydı. İndi isə həmin torpaqlarda iqtisadi həyatı yenidən canlandırmaq imkanı yaranmışdır. Bu imkan nədən ibarətdir?

Birincisi, azad edilmiş Qarabağ və Şərqi Zəngəzur əraziləri demək olar ki, sıfırdan qurulan iqtisadi məkan kimi nəzərdən keçirilir. Orada "ağıllı" şəhər və kənd konsepsiyaları tətbiq edilir, tamamilə yeni infrastruktur şəbəkəsi qurulur (Kolarz & Wojtasiewicz, 2025). İkincisi, hökumət bu bölgələri ölkə iqtisadiyyatına reinteqrasiya edərkən ən müasir yanaşmaları sınaqdan keçirməyi planlaşdırır. Prezident İlham Əliyev azad edilmiş torpaqlarda elə bir inkişaf modeli qurmağı qarşıya məqsəd qoydu ki, sonra onu ölkənin digər bölgələrinə də tətbiq etmək mümkün olsun (Aliyev, 2021). Bu "Qarabağ modeli" adlandırılan yanaşma Azərbaycanın iqtisadi idarəetməsində mövcud nöqsanları aradan qaldırmaq və uğurlu inkişafı təmin etmək məqsədi daşıyır (Aliyev, 2021).

**Xidmət sektorunun inkişafı və diversifikasiya ehtiyacı**

Qarabağ bölgəsinin dirçəlişi geniş mənada Azərbaycan iqtisadiyyatının yeni mərhələyə keçidi ilə üst-üstə düşür. Ölkənin neft gəlirlərini səmərəli investisiyalara çevirmək üçün əlində nadir fürsət var. 2022-ci ildə Azərbaycanda qeyri-neft ÜDM 9.1% artdığı halda, neft-qaz ÜDM-i 2.7% azalmışdır (International Trade Administration, 2023). Bu, qeyri-neft sektorlarının, o cümlədən xidmət sahələrinin iqtisadi artımdakı rolunun yüksəldiyini göstərir. Azərbaycan hökuməti də öz növbəsində azad edilmiş ərazilərin bərpasını və inkişafını iqtisadi diversifikasiyanın lokomotivi kimi görür (Bayramov, 2021). Milli Məclisin deputatı Vüqar Bayramovun sözlərinə görə, Qarabağda tətbiq ediləcək yeni iqtisadi model məhz müasir standartlara uyğun infrastruktur quruculuğunu və innovativ iqtisadi idarəetməni ehtiva edir (Bayramov, 2021). Burada əsas məqsəd həmin modelin sınaqdan keçirilməsi və uğurlu olarsa, ölkənin digər bölgələrinə transfer edilməsidir (Bayramov, 2021).

Azad edilmiş bölgələrdə xidmət yönümlü iqtisadiyyat qurmaq üçün bir neçə rəqabət üstünlüyü mövcuddur. İlk növbədə, Qarabağın zəngin təbii və mədəni irsi turizm sektorunun inkişafı üçün böyük perspektiv açır. Qarabağ hələ sovet dövründə ölkənin "səfalı guşəsi" kimi tanınırdı, burada çoxsaylı tarixi-mədəni abidələr, kurort imkanları mövcuddur. Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan edilmişdir və artıq beynəlxalq festivallara ev sahibliyi edir. Təbii gözəllikləri və iqlimi ilə seçilən Kəlbəcər, Laçın kimi bölgələr gələcəkdə dağ turizmi, eko-turizm üçün cəlbedici mərkəzlərə çevrilə bilər (Almasov, 2025). Bütün bunlar xidmət sektorunun bir qolu olan turizm və qonaqpərvərlik sənayesinin Qarabağda aparıcı sahələrdən biri kimi formalaşa biləcəyini göstərir.

Bundan başqa, Qarabağ regionu strateji coğrafi mövqeyinə görə ticarət və nəqliyyat-logistika xidmətləri içün də əlverişlidir. Məsələn, Zəngilan rayonu üzərindən keçəcək potensial "Zəngəzur dəhlizi" Orta Asiya və Avropa arasında mühüm tranzit marşrutu sayıla bilər. Artıq bölgədə Füzuli Beynəlxalq Hava Limanı (2021) və Zəngilan Beynəlxalq Hava Limanı (2022) tikilib istifadəyə verilmişdir (Kolarz & Wojtasiewicz, 2025). Bu hava limanları təkcə sərnişin deyil, yük daşımaları üçün də regionun qapısını açır. Bununla yanaşı, Horadizdən Zəngilana və Şuşaya qədər çəkilən avtomobil və dəmir yolları Qarabağın logistika şəbəkəsini ölkənin və regionun iqtisadi sisteminə bağlayır. Yəni, yaxın gələcəkdə Qarabağ bölgəsi beynəlxalq daşımaların və ticarətin qovşağı kimi xidmət göstərmək potensialına malikdir.

Qarabağ iqtisadiyyatının dirçəlişi təkcə turizm və logistika ilə məhdudlaşmır. Azad edilmiş ərazilər yeraltı və yerüstü sərvətlərlə də zəngindir. Məsələn, Kəlbəcər və Zəngilan rayonlarında qızıl, mis və digər qiymətli metal mədənləri yerləşir (Kolarz & Wojtasiewicz, 2025). Bu mədənlərin istismarı hasilat sənayesini canlandıra, onun əsasında emal və xidmət sahələri (geoloji kəşfiyyat, mühəndislik, nəqliyyat xidmətləri və s.) inkişaf edə bilər. Həmçinin, Qarabağın münbit torpaqları yüksək dəyərli kənd təsərrüfatı məhsullarının istehsalı üçün şərait yaradır (Almasov, 2025). Bu da öz növbəsində aqro-turizm, logistika və digər əlaqəli xidmətlərin genişlənməsinə töhfə verə bilər.

**Qarabağ modeli və institusional yeniliklər**

Qarabağda həyata keçirilən yeni iqtisadi modelin əsas tərkib hissələrini iki istiqamətdə nəzərdən keçirmək olar: sərmayələr hesabına sürətli infrastruktur quruculuğu və biznes mühitini yaxşılaşdırmaq üçün xüsusi institusional tədbirlər. Azərbaycan dövləti 2021-ci ildən etibarən azad edilmiş ərazilərin bərpasına böyük həcmdə büdcə vəsaiti yönəldir. 2021–2023-cü illər ərzində təkcə dövlət büdcəsindən Qarabağın yenidən qurulmasına 12 milyard manatdan çox (təxminən 7.1 milyard ABŞ dolları) vəsait ayrılmışdır (U.S. Department of State, 2023). 2024-cü ildə isə bu istiqamətə 2.82 milyard dollar nəzərdə tutulmuşdur ki, nəticədə 2021–2024-cü illər üçün ümumi xərclər 10 milyard dollara yaxınlaşmışdır (Guliyev, 2025). Bu misli görünməmiş investisiya hesabına qısa müddətdə yollar, körpülər, elektrik stansiyaları, su və qaz kəmərləri, sosial obyektlər tikilir. Cədvəl 2-də son illərdə Qarabağda həyata keçirilmiş əsas infrastruktur layihələrindən bəziləri əks olunur.

**Cədvəl 2**

**Qarabağda həyata keçirilmiş əsas infrastruktur layihələrindən bəziləri.**

| Layihə | Təsviri | Tamamlama tarixi |
|---|---|---|
| Füzuli Beynəlxalq Hava Limanı | Qarabağda ilk beynəlxalq hava limanı (idarəetmə: AZAL) | oktyabr 2021 |
| Zəngilan Beynəlxalq Hava Limanı | İkinci hava limanı (Azərbaycan-Türkiyə şirkətləri tərəfindən) | oktyabr 2022 |
| "Zəfər Yolu" (Füzuli-Şuşa avtomagistralı) | Füzuli şəhərindən Şuşaya gedən 101 km-lik yeni yol | noyabr 2021 |
| Laçın Beynəlxalq Hava Limanı | Üçüncü hava limanı (dağlıq ərazidə inşa edilir) | 2025 |

***Mənbə:** Rəsmi məlumatlar əsasında (Bayramov, 2021; Kolarz & Wojtasiewicz, 2025).*

Yuxarıdakı layihələr Qarabağın nəqliyyat əlçatanlığını köklü şəkildə dəyişir. Məsələn, Füzuli Hava Limanı cəmi 8 ay ərzində inşa edildi və 2021-ci ilin oktyabrında istifadəyə verildi (Bayramov, 2021). Onun tikintisi təqribən 40 milyon ABŞ dollarına başa gəldi. Hazırda həmin aeroport həftədə bir neçə reys qəbul etsə də (Kolarz & Wojtasiewicz, 2025), bu, ilk addımdır və gələcəkdə bölgəyə turist və investor axınının artacağı gözlənilir. Eyni zamanda, Laçın aeroportunun tikilməsi ilə Qarabağ regionu hava nəqliyyatı baxımından tam əhatə olunmuş olacaq. "Zəfər Yolu" kimi müasir magistrallar sayəsində isə turizm marşrutları və yükdaşımalar üçün rahat şərait yaradılır. Qeyd etmək lazımdır ki, bu infrastruktur layihələri təkcə iqtisadi deyil, həm də siyasi əhəmiyyət daşıyır – Azərbaycan dövləti sürətli quruculuq işləri ilə Qarabağ regionunun dirçəlişini öz gücü ilə təmin etdiyini nümayiş etdirir.

Bununla yanaşı, "Qarabağ modeli" dedikdə təkcə fiziki infrastrukturun qurulması yox, həm də fərqli idarəçilik və iqtisadi rejimin tətbiqi nəzərdə tutulur. Prezident İlham Əliyev vurğulamışdır ki, azad olunmuş torpaqlarda elə bir müasir idarəetmə sistemi qurulmalıdır ki, orada hər şey planlı şəkildə təmin edilsin (Aliyev, 2021). Bu baxımdan, hökumət həmin ərazilər üçün xüsusi vergi və investisiya rejimi formalaşdırmaqdadır. Yeni model çərçivəsində azad edilmiş zonalarda uzunmüddətli vergi güzəştləri, gömrük rüsumlarından azadolma, subsidiyalar və dövlət-özəl tərəfdaşlığı mexanizmləri nəzərdə tutulur (Bayramov, 2021; Caspian News, 2022). Məsələn, azad edilmiş ərazilərə investisiya qoyan şirkətlər üçün mənfəət vergisindən müəyyən müddətlik azadolma, idxal avadanlığı üçün gömrük güzəştləri tətbiq olunacağı rəsmi şəkildə açıqlanmışdır (Caspian News, 2022). Bundan əlavə, xarici sərmayədarları cəlb etmək üçün xüsusi iqtisadi zonaların yaradılması planlaşdırılır (Bayramov, 2021). Belə zonalarda sadələşdirilmiş tənzimləmələr, "vahid pəncərə" sistemi ilə icazələrin verilməsi və mülkiyyət hüquqlarının əlavə təminatı kimi tədbirlər həyata keçirilir.

Qarabağda biznes mühitinin yaxşılaşdırılması istiqamətində atılan addımlardan biri də institusional idarəçiliyin yenilənməsidir. Prezident azad edilmiş hər bir rayon üzrə xüsusi nümayəndələr təyin etmiş, həmin nümayəndəliklərə müvafiq səlahiyyətlər vermişdir (Kolarz & Wojtasiewicz, 2025). Bu, mərkəzi icra orqanlarının funksiyalarının çevik koordinasiyasına və bürokratik maneələrin azaldılmasına xidmət edir. Digər tərəfdən, "Böyük Qayıdış" proqramı çərçivəsində məcburi köçkünlərin könüllü və davamlı şəkildə Qarabağa qayıtması üçün sosial təşviq paketləri hazırlanır (Guliyev, 2025). Dövlətdən ev-eşiklə təminetmə, güzəştli kreditlər, təhsil və səhiyyə imtiyazları kimi addımlar vasitəsilə əhalinin həmin bölgələrdə məskunlaşmasına stimul verilir. Bu, xidmət sektorunun inkişafı üçün zəruri insan resursunun təmin olunması deməkdir. May 2025-ci il tarixinə azad edilmiş torpaqlara artıq 43 mindən çox vətəndaş qayıdıb (A. Guliyev, 2025). Bu rəqəm hələ ki, Böyük Qayıdış planının ilk mərhələsi üçün nəzərdə tutulmuş 140 min nəfərlik hədəfdən xeyli az olsa da, hər ay yeni ailələr Şərqi Zəngəzur və Qarabağda tikilmiş "ağıllı kənd"lərə, yaşayış komplekslərinə köçürülür. Məsələn, Zəngilanın Ağalı kəndinə 2022-ci ilin yayında ilk 100-ə yaxın ailə – təxminən 400 nəfər – yerləşdirildi (Kolarz & Wojtasiewicz, 2025). Müasir şəraitdə qurulan bu kənd vətəndaşların rahat yaşaması üçün lazım olan məktəb, klinika, internet şəbəkəsi kimi xidmət infrastrukturu ilə təchiz olunub.

Cədvəl 3-də Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpası və inkişafı ilə bağlı bəzi əsas göstəricilər ümumiləşdirilib:

**Cədvəl 3**

**Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpası və inkişafı ilə bağlı bəzi əsas göstəricilər**

| Göstərici | Dəyər (təxminən) |
|---|---|
| Bərpa olunmuş ərazilərin ümumi sahəsi | ~17,000 km² (Azərbaycanın təqr. 20%-i) |
| Tamamilə dağıdılmış kənd və qəsəbələrin sayı | 800-dən çox kənd, 7 şəhər/rayon mərkəzi |
| 2026-cı ilin sonunadək qayıdacaq əhali sayı (plan) | 140 min nəfər |
| 2021–2030 planlaşdırılan dövlət investisiyası | 17.6 mlrd. ABŞ dolları |
| Yaradılması nəzərdə tutulan sənaye parkları | 5 ədəd (üstəgəl 50 aqropark) |
| Qarabağda qurulan “yaşıl enerji” gücü | 240 MVt günəş (ilk stansiya, 2023) |

***Mənbə:** Azərbaycan rəsmilərinin məlumatlarına əsasən (Kolarz & Wojtasiewicz, 2025; Guliyev, 2025).*

Yuxarıdakı göstəricilər Qarabağ modelinin miqyasını təsəvvür etməyə imkan verir. Təkcə ərazilərin sahəsinə görə yox, həm də yatırılan vəsaitlərin həcminə görə bu, Azərbaycan tarixində ən böyük regional inkişaf proqramıdır. 162 mindən çox bina və tikilinin 95%-nin tamamilə dağıldığı nəzərə alınarsa, görülən işlərin ümumi mənzərəsi aydınlaşar (Kolarz & Wojtasiewicz, 2025). Hökumət 2050-ci ilə qədər Qarabağ və Şərqi Zəngəzuru tam bərpa etməyi qarşısına məqsəd qoyub. Bu isə onilliklər boyu davam edəcək bir prosesdir. 2026-cı ilə qədər “Böyük Qayıdış”ın birinci mərhələsi çərçivəsində ən azı 140 min nəfərin daimi məskunlaşması planlaşdırılır (Kolarz & Wojtasiewicz, 2025). Bunun üçün zəruri yaşayış infrastrukturu – evlər, məktəblər, xəstəxanalar, yollar – sürətlə inşa edilməkdədir. Gələcəkdə, məskunlaşmanın artması ilə, həmin ərazilərdə ictimai və kommersiya xidmətlərinə tələbat da artacaqdır. Bu da öz növbəsində yeni kiçik və orta sahibkarlıq subyektlərinin yaranmasına şərait yaradacaq.

Qarabağ modelinin vacib bir cəhəti də onun “yaşıl” və dayanıqlı inkişaf prinsiplərinə əsaslanmasıdır. Prezident İlham Əliyev azad edilmiş bölgələri “yaşıl enerji zonası” elan etmişdir və burada bütün enerji tələbatının bərpa olunan mənbələr hesabına ödənilməsi hədəfi qoyulub (Kolarz & Wojtasiewicz, 2025). Artıq Cəbrayıl rayonunda BP şirkətinin sərmayəsi ilə 240 MVt gücündə günəş elektrik stansiyası tikilib və bu, ölkədə ən böyük günəş energetik qurğusudur (Kolarz & Wojtasiewicz, 2025). Tərtər və Laçın rayonlarında bir neçə kiçik su elektrik stansiyası yenidən qurulmuş, Araz çayı üzərində Xudafərin və Qız Qalası hidroqovşaqlarının istismarı bərpa edilmişdir. Əlavə olaraq, Kəlbəcər və Daşkəsən dağlarında külək enerjisi potensialı araşdırılır. Bütün bu addımlar Qarabağda aşağı karbonlu enerji infrastrukturunun formalaşmasına xidmət edir. Bu da xidmət iqtisadiyyatına iki şəkildə təsir göstərəcək: birincisi, enerji təminatı yaxşılaşdığı üçün regionda bizneslərin xərcləri azalacaq; ikincisi, “yaşıl zona” brendi ekoturizm və müasir texnologiyaların sınaqdan keçirilməsi üçün Qarabağa beynəlxalq marağı artıra bilər. Məsələn, ağıllı şəhər konsepsiyası çərçivəsində enerji səmərəliliyi yüksək olan binalar, elektrik nəqliyyat vasitələri, tullantıların təkrar emalı kimi xidmətlər Qarabağda pilot olaraq tətbiq edilir (Eurasianet, 2022). Bu yeniliklər uzun müddətdə bütün ölkə üzrə yayğınlaşa bilər.

## NƏTİCƏ

Qarabağ modelinin reallaşdırılması Azərbaycanın xidmət iqtisadiyyatına keçid prosesini sürətləndirmək üçün tarixi bir imkandır. Bu model, azad olunmuş ərazilərin yenidən qurulması fonunda yeni iqtisadi idarəetmə üsullarını sınaqdan keçirir. Aparılan təhlillər göstərir ki, hökumətin genişmiqyaslı sərmayələri hesabına Qarabağda qısa müddətdə zəruri infrastruktur yaradılır, biznes və xidmət mühiti formalaşır. Xüsusi vergi güzəştləri və təşviq mexanizmləri sayəsində yerli və xarici investorlar cəlb olunur ki, bu da qeyri-neft sektorlarının – xüsusilə turizm, nəqliyyat, telekommunikasiya və digər xidmət sahələrinin – inkişafına təkan verəcəkdir. Artıq 2023–2024-cü illərdə azad edilmiş ərazilərin bərpası ümumi iqtisadi artımın vacib amillərindən birinə çevrilmişdir (International Trade Administration, 2023). Gözlənilir ki, yaxın illərdə Qarabağ

və Şərqi Zəngəzur regionları Azərbaycanın iqtisadi inkişafında əsas drayverlərdən biri olacaq (Bayramov, 2021).

Qarabağ modelinin mühüm nəticələrindən biri xidmət sektorunda innovativ həllərin tətbiqidir. “Ağıllı kənd” və “ağıllı şəhər”lərdə rəqəmsal texnologiyalara əsaslanan dövlət xidmətləri, smart-infrastruktur elementləri sınaqdan keçirilir. Bu, gələcəkdə ölkə üzrə xidmət sferasında səmərəliliyin yüksəlməsinə töhfə verəcək insan yönümlü idarəçilik nümunəsidir. Digər nəticə – regionda formalaşan yeni iqtisadi mühit əhalinin həyat keyfiyyətini artıraraq uzun müddətdə ölkə daxilində insan kapitalının səmərəli bölgüsünə imkan verəcəkdir. Artıq məcburi köçkün statusu tarixə qovuşur, insanlar öz yurdlarına qayıdaraq iqtisadi fəaliyyətə qoşulurlar (A. Guliyev, 2025). Bu prosesin uğuru üçün, sözsüz ki, hələ xeyli çağırışlar mövcuddur – minalardan təmizləmə, özəl sektorun tam bərpa olunması üçün risklərin azaldılması, kadr hazırlığı və s. Lakin görülən tədbirlər sayəsində Qarabağ bölgəsi tədricən həm iqtisadi, həm də sosial baxımdan canlanır.

Beləliklə, “Qarabağ modeli” Azərbaycanın xidmət iqtisadiyyatına keçidini sürətləndirə biləcək unikal təcrübə rolunu oynayır. Azad edilmiş ərazilərdə sınaqdan keçirilən yeni idarəetmə metodları, infrastruktura yatırımların yüksək effektivliyi, “yaşıl” və innovativ yanaşmalar öz bəhrəsini verərsə, bu model ölkənin digər regionlarında da tətbiq ediləcək. Bu da ümumilikdə Azərbaycanın post-neft dövründə dayanıqlı və diversifikasiya olunmuş iqtisadi inkişafa nail olmasına ciddi təkan verəcəkdir. Qarabağın yenidən qurulması bir tərəfdən iqtisadiyyatın canlanmasına, digər tərəfdən isə ölkənin beynəlxalq imicinin möhkəmlənməsinə xidmət edir (Eurasianet, 2022). İllər sonra Qarabağ regionu təkcə Azərbaycanın ərazi bütövlüyünün rəmzi deyil, eyni zamanda müasir xidmət iqtisadiyyatının nümunəvi modeli kimi də xatırlanacaq.

### *İstifadə edilmiş ədəbiyyat:*


**1.** Aliyev İ. (2021). İlham Əliyevin AzTV-yə müsahibəsindən çıxış (Qarabağda yeni iqtisadi model barədə), 12 yanvar 2021.

**2.** Bayramov V. (2021). Milli Məclis deputatı Vüqar Bayramovun Qarabağda yeni iqtisadi model barədə açıqlaması. Sputnik Azərbaycan, 25 yanvar 2021.

**3.** Kolarz S., & Wojtasiewicz W. (2025). Azerbaijan’s Challenges in the Reconstruction of Karabakh. PISM Policy Paper, 08 iyul 2025.

**4.** Guliyev F. (2025). Post-conflict Resettlement in Karabakh: Rebuilding Livelihoods. Researching Internal Displacement, 13 fevral 2025.

**5.** Almasov N. N. (2025). The role of the Karabakh region in the economic growth of Azerbaijan in the near future. Economic Sciences (İqtisadi elmlər), №15(78), 78-87.

**6.** International Trade Administration (2023). Azerbaijan Country Commercial Guide: Market Overview (21 noyabr 2023).

**7.** U.S. Department of State (2023). Investment Climate Statement 2024 – Azerbaijan. Vaşinqton, 2023.

**8.** World Bank (2025). World Development Indicators: Azerbaijan – Services, value added (% of GDP).

**9.** Gryczka M. (2016). The Changing Role of the Service Sector in an Innovation-Oriented Economy. Folia Oeconomica Stetinensia, 16(2), 176-190.

**10.** Bell D. (1973). The Coming of Post-Industrial Society. New York: Basic Books.

**11.** Guliyev A. (2025). Population in Azerbaijan’s Karabakh, East Zangezur surpasses 43,000. Caliber.az, 15 may 2025.

**12.** Caspian News (2022). Azerbaijan Introduces Special Economic Regime in Liberated Lands. 23 iyun 2022.

**13.** Eurasianet (2022). Karabakh’s reconstruction inspires hope, stirs concern. 5 oktyabr 2022.

**J.M.Abdullayev**
*PhD candidate, Institute of Economics of the Ministry of Science and Education*

## Restructuring of the service economy: the Karabakh model

**Abstract**

*The role of the service sector in the modern global economy is rapidly increasing. Azerbaijan's economy has long depended on oil and gas revenues, but in the post-oil era there is a need for economic diversification to ensure sustainable growth. The restructuring of the service economy stems from this necessity. Although the share of the service sector in Azerbaijan's GDP has gradually risen in the 2020s, it still lags behind the world average. The liberation of the Karabakh region has given Azerbaijan an opportunity to pilot a new economic model. This article examines the essence of the "Karabakh model," analyzing modern infrastructure building in the liberated territories and the development prospects of service-oriented activities (tourism, logistics, ICT, etc.). The study utilizes analysis of official statistics and relevant literature. For the first time, the role of the Karabakh model in post-conflict economic restructuring is evaluated. The impact of the government's large-scale reconstruction efforts and special mechanisms such as tax incentives and investment promotion on the formation of the service economy is assessed. As a result, it is concluded that the new economic environment being created in the Karabakh region will contribute to Azerbaijan's overall economic diversification and sustainable development.*

***Key words:*** *service economy, Karabakh, economic model, diversification, reconstruction.*